**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

Əlyazması hüququnda

**GÜLŞƏN TAHİR QIZI EMİNOVA**

# MÜƏLLİM VƏ YENİYETMƏLƏR ARASINDA PEDAQOJİ MÜNAQİŞƏLƏR VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI

5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi pedaqogika kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Ləzifə Nağı qızı Qasımova**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Akif Nurağa oğlu Abbasov**
*pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar müəllim*

**Yadigar Babakişi oğlu Səmədov**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı təşkilat:** **Azərbaycan Dillər Universitetinin Pedaqogika kafedrası**

Müdafiə "10" aprel 2018-ci il tarixdə saat $14^{00}$ -da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD.02.061 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68, ADPU, əsas bina, kiçik akt zalı

Dissertasiya işi ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana -İnformasiya Mərkəzində tanış olmaq olar.

Avtoreferat " ___" _________ 2018-ci il tarixdə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi:** **R.Z.Hümbətəliyev**
**riyaziyyat üzrə elmlər doktoru, dosent**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı**. Təhsil İslahatında prioritet istiqamətlər üzrə fəaliyyətləri günün tələbləri səviyyəsində qurmaq üçün təlim prosesində müəllim-şagird münasibətlərinə yenidən baxmaq, onun humanistləşdirilməsinə çalışmaq günün ən vacib məsələlərindəndir. Xüsusilə də böhran dövrü olan yeniyetməlik yaş dövründə müəllim-şagird münaqişələrinin mexanizminin öyrənilməsi, yeni şərait fonunda bu münaqişələrin aradan qaldırılması, yeniyetmələrin şəxsiyyət kimi formalaşmasının əsasında durur.

Tarixi vərəqlədikcə ayrı-ayrı dövrlərin, zamanların dərinliklərinə endikcə bu problemi həll etmək üçün şərh olunmuş çoxlu zəka məhsullarına və fikir toplularına rast gəlirik, lakin hər yeni dövrə nəzər saldıqca, keçmişlə yenini müqayisə etdikcə, insan mənəviyyatının formalaşmasında ziddiyyətli olan bir məqam, yəni, yeniyetmə şəxsiyyətinin öyrənilməsində hələ də ciddi çatışmazlıq, natamamlıq olduğunu və bu böyük problemin lazımınca öyrənilmədiyinin, bir çox cəhətlərinin hələ də qaranlıq qaldığı hiss edilir.

Ümumiyyətlə müasir təhsil sisteminin qarşısında duran əsas vəzifələrdən ən birincisi müəllim və yeniyetmə şagirdlər arasında münasibətlərin subyekt-subyekt münasibətləri əsasında qurulmasına zəmin yaratmaq, daha doğrusu, müəllim və yeniyetmələr arasında pedaqoji münaqişələr və onların aradan qaldırılması yollarını müəyyən etməkdən ibarətdir.

Yeniyetməlik yaşı və onun xüsusiyyətləri bütün dövrlərdə filosof, psixoloq, pedaqoqların diqqət yetirdiyi tədqiqat obyektinə çevirdiyi problemlərdən olmuşdur. Bununla belə, yeniyetməlik yaşının xüsusiyyətləri ilə bağlı müxtəlif psixologiya məktəbləri ilə, eləcə də yeni məktəbin nümayəndələri arasında fərqli münasibətlər olmuş və bu gün də bu barədə vahid, tamamlanmış mövqeyin olduğunu söyləmək mümkün deyil. Tarix göstərir ki, insan cəmiyyətinin doğurduğu problemlər həll olunsa belə, yenisini sə yaradır və bunlar da öz həllini tələb edir.

Bu cəhətdən yeniyetmənin şəxsiyyətinin təşəkkülü prosesi alimləri düşündürmüş və bu gün də düşündürməkdədir. Bu da bir həqiqətdir ki, insanın əxlaqi münasibətlərinin kökləri nə qədər dərinlikdədir. Onun rişələri cəmiyyətin həyat şəraitində, maddi istehsal münasibətlərində olsa da, mütərəqqi əxlaq nəzəriyyəçiləri əxlaqi tərəqqiyə bu və ya başqa şəkildə kömək etmişlər. Bu münasibətlə biz tədqiq etdiyimiz problemin tarixiliyinə nəzər salmaq üçün öncə şifahi xalq yaradıcılığının müxtəlif qolları olan

nağıl, dastan, rəvayət, öyüd və nəsihətlərə, şəxsiyyətlərin didaktik əsərlərinə diqqət yetirməyi lazım bilmişik.

Tədqiqat prosesində buna tam əmin olmuşuq ki, yeniyetməlik yaş dövrünə aid aparılan tədqiqatların başlıca istiqaməti müəllim-şagird, valideyn-müəllim, valideyn-məktəb münasibətlər sistemi ilə bağlıdır. Bu münasibətlər sistemində müəllim-şagird, müəliim-valideyn münasibətləri əsas yer tutur.

Tədqiqat prosesində biz şəxsiyyətlərarası münasibətlər probelmi ilə məşğul olan xarici ölkələrin və Azərbaycan pedaqoq və psixoloqlarının əsərləri ilə tanış olduq. Xarici ölkə psixoloq və pedaqoqlarından K.Lenin, F.Olparx, K.Xorni, E.Erikson, A.Maslon, keşmiş sovet psixoloqlarından V.S.Aqeyev, Q.M.Andreyeva, A.V.Petrovski, B.F.Lomov, habelə Azərbaycan pedaqoqlarından M.Mehdizadə, Ə.Seyidov, M.Muradxanov, H.Əhmədov, F.Rüstəmov, S.Quliyev, psixoloqlardan Ə.Əlizadə, Ə.Bayramov, M.Həmzəyev, R.Əliyev və başqalarının tədqiqatlarında şəxsiyyətin özünü gerçəkləşdirməsinə, özünü dərketməyə, qrupdaxili, şəxsiyyətlərarası münasibətlərə, müəllim-şagird münasibətlərində müsbət nümunəyə, valideyn-müəllim münasibətlərində düzlük-doğruçuluq və əxlaqi keyfiyyətlərə əməl olunmasına daha çox diqqət yetirmişlər. Bu sahədə aparılmış tədqiqatlar da problemin müəyyən aspektlərdən tədqiqlərə ehtiyacı olduğu və sistemli şəkildə davam etdirilməsi tövsiyə edilir. Bu baxımdan biz "Müəllim və yeniyetmələr arasında pedaqoji münaqişələr və onların aradan qaldırılması yolları" mövzusunu seçməyi və tədqiq etməyi qarşımıza məqsəd qoyduq.

**Mövzunun işlənmə səviyyəsi.** Aparılmış tədqiqatların təhlili göstərir ki, problemlə əlaqədar bir sıra istiqamətlərdə tədqiqqat işləri aparılmışdır. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Pedaqoji sahədə aparılmış
2. Sosial və ümumi psixologiya sahəsində
3. Fəlsəfə və hüquq sahəsində

Pedaqoji istiqamətdə M.Mehdizadə, Ə.Seyidov, M.Muradxanov, Y.Talıbov, H.Əhmədov, Ə.Ağayev, N.Kazımov, A.Abbasov, F.Rüstəmovun, Avropa və rus pedaqoq və psixoloqlarından K.Levin, E.Erikson, V.S.Ağayev, Q.M.Angerna, A.O.Xaraçev, A.Q.Xripkovanın tədqiqat əsərlərində, habelə A.S.Makarenko, A.V.Suxomlinski və başqalarının əsərlərində ailədaxili münasibətlər, valideyn-övlad məktəb-valideyn münasibətləri uşaqlarla aparılan tərbiyə işinin əsas qayəsi kimi şərh olunmuşdur. Bu tədqiqat işələrində müəllim-şagird münasibətləri

ətraflı araşdırılaraq maraqlı fikirlər söylənilmişdir. Bütün bunlarla yanaşı, onu da deyə bilərik ki, müəllim-şagird münasibətlərində baş verən münaqişələrin aradan qaldırılması yollarının tədqiqi konkret tədqiqat obyekti olmamış və baş verən münaqişə bu yönümdən hərtərəfli araşdırılmamışdır. Qeyd etdiyimiz bütün bu məsələlər problemin aktual olduğunu bir daha təsdiq edir.

**Tədqiqatın obyektini** yeniyetmə yaşına məxsus olan şagirdlərin formalaşması xüsusiyyətlərinin hərtərəfli öyrənilib təhlil edilməsidir.

**Tədqiqatın predmetini** yeniyetmə şəxsiyyətinin formalaşmasında müəllim-şagird münasibətlərinin pedaqoji və psixoloji təhlili təşkil edir.

**Tədqiqatın məqsədi.** Problemin tədqiqində başlıca məqsəd xüsusi metodikaların, pedaqoji-psixoloji eksperimentlərin köməyi ilə müəllim-yeniyetmə münasibətlərinin mahiyyətini müəyyən etmək yeniyetmə şəxsiyyətinin formalaşmasına onun təsirini meydana çıxaran neqativ təzahürlərin səbəbini öyrənmək və bununla da təlim-tərbiyə işinin səmərəliliyini yüksəltməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri.** Tədqiq etdiyimiz problemin həlli üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir:

1. Problemlə bağlı klassik şərq fəlsəfi fikrini və Azərbaycan klassik ədəbiyyatını təhlil edib ümumiləşdirmələr aparmaq və müasir dövrdə onlardan istifadənin səmərəli yollarını dəqiqləşdirmək.
2. Problemlə əlaqədar yeniyetməlik yaş dövrünə dair pedaqoji-psixoloji ədəbiyyatın nəzəri təhlilini aparmaq və onları qruplaşdıraraq Aəzrbaycan reallıqlarının adekvat olanlarını seçib münasibət bildirmək.
3. Müəllim-şagird münasibətlərinin pedaqoji-psixoloji xüsusiyyətlərini öyrnmək, onların subyekt-subyekt münasibətləri üzərində qurulmasının və tərbiyəyə nə dərəcədə effektiv təsirinin yollarını müəyyənləşdirmək.
4. Müəllimin ustalığı ilə onun şəxsi keyfiyyətlərinin vəhdəti, şagirdlərlə qarşılıqlı münasibəti və onun təlimin keyfiyyətinə təsirini öyrənmək.
5. Müəllim-şagird münasibətlərinin kollektivin psixoloji iqliminə, eləcə də münaqişə vəziyyətinin yaranmasına təsirini araşdırmaq.
6. İxtilaf anlayışının həm pedaqoji, həm psixoloji və həm də fəlsəfi aspektlərinin aydınlaşdırmaq.
7. Müəllim-şagird münasibətlərində baş verən ixtilafların aradan qaldırılması üçün görkəmli şəxsiyyətlərin ideyalarına istinad edərək bir sira tövsiyələrin işlənib hazırlanmasına nail olmaq.

**Tədqiqatın əsas fərziyyəsi.** Tədqiqatda başlıca olaraq belə bir fərziyyə əsas götürülür ki, əgər yeniyetməlik yaş dövründə müəllim-şagird münasibətləri müasir tələblərə adekvat qurularsa, yeniyetmə şəxsiyyəti də düzgün formalaşar. Əsas fərziyyəyə müvafiq olaraq bir neçə alternativ işçi fərziyyələrdən istifadə etmək məqsədə uyğundur.

Bu da aşağıdakılardan ibarətdir:

1. Müəllim-şagird münasibətləri subyekt-subyekt münasibətlərinə uyğun qurularsa, şagirdlərin təlim muvəffəqiyyətləri yüksələr.

2. Müəllimin peşəkarlıq və ustalıq səviyyəsi onun şəxsi keyfiyyəti ilə vəhdət təşkil eddərsə və həmçinin şagirdlərlə qarşılıqlı münasibət pozitiv istiqamətdə qurularsa, bu kimi hallar yeniyetmə şəxsiyyətinin düzgün formalaşmasına müsbət təsir göstərər.

**Tədqiqatın metadoloji əsasları.** Tədqiqada cəmiyyət-şəxsiyyət sistemi üzrə ümumi prinsiplərdən çıxış edilmiş, müəllim-şagird münasibətləri haqqında elmi-nəzəri fikirlər, xüsusən də pedaqogika, psixologiya və fəlsəfədə ailədaxili münasibətlərə dair elmi-nəzəri fikirlər müstəqil Azərbaycan Respubikasının Konstitusiyası və onun muəlliflik hüquqları və sənədləri tədqiqatın gedişində əsas kimi istifadə olunmuşdur.

Tədqiqatda belə bir müddəaya da istinad edilir ki, müəllim-şagird münasibətlərində baş verən ixtilafların dərəcəsi, şagirdlərin dünyagörüşündən, mövcud sosial-iqtisadi vəziyyəyin dinamikliyindən də aslıdır.

Tədqiqatda bir sıra **üsullardan:** eksperiment, müşahidə, anket sorğusu, müsahibə və başqa üsullardan istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işində ilk dəfə olaraq müəllim-şagird münasibətlərində baş verən münaqişə və ixtilafların yaranma səbəbləri və tarixi kökləri araşdırılmış və bunların aradan qaldırılması üçün müvafiq pedaqoji, psixoloji və fəlsəfi üsullardan istifadə olunmuşdur. Bu münasibətlərin təşəküllü və inkişafının bir sıra pedaqoji məqamları daim diqqət mərkəzində saxlanılmışdır. Həmçinin ilk dəfə olaraq bu tədqiqat işində qarşılıqlı dərketmə, pedaqoji təsir formaları, müsbət və mənfi emosiya təlim fəaliyyətində şagirdlərin özünü aktuallaşdırılması kimi komponentlər həm nəzəri, həm də praktiki cəhətdən şərh olunmuşdur;

Tərbiyədə qarşılıqlı münasibətləri təmin edən müəllim-şagird münasibətlərinin formalaşması prosesi elmi cəhətdən əsaslandırılmışdır;

Müəllim-şagird münaqişələrinin subyekt-subyekt münasibətləri üzərində qurulmasının psixoloji əsasları göstərilmişdir, belə münasibətlər sisteminin səmərəliliyi və müəllimin ünsiyyət üslubununtəsirinin pedaqoji və psixoloji mexanizmi ayrı-ayrılıqda şərh edilmişdir.

**Müdafiəyə təqdim olunan müddəalar:** Münasibətlər sisteminin subyekt-subyekt münasibətləri üzərində qurulması şagirdlərin pedaqoji-psixoloji inkişafında, eləcə də, yeniyetmə şəxsiyyətinin formalaşmasında əhəmiyyətli rol oynayır. Belə ki:

- müəllim-şagird münasibətlərinin qarşılıqlı hörmət, əməkdaşlıq, tolerantlıq üzərində qurulması təlimin səmərəliliyinin yüksəldilməsinə əsaslı şəkildə təsir edir;
- pedaqoji prosesdə müəllimin ünsiyyət üslubu kollektivdə psixoloji iqlimin formalaşmasında başlıca rol oynayır;
- müəllim-şagird münasibətləri düzgün qurulduqda, şagirdlərin təlim maraqları, motivləri, eləcə də yeniyetmələrin yaş xüsusiyyəti nəzərə alındıqda şagirdlər arasında da münasibətlər pozitiv yönümdə təzahür edir, şagirdlərin özünüfəallaşdırılması, özünüdərki, özünütəsdiqi üçün münbit şərait yaranır.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Müəllim-şagird münasibətləri, bu münasibətlərin subyekt-subyekt münasibətləri əsasında qurulması, müəllimin ünsiyyət üslubunun təlimin keyfiyyətinə təsirinin öyrənilməsi tədqiqatın nəzəri əhəmiyyətini təşkil edir. Təqiqatın nəticələri yaş və pedaqoji-psixologiyanı yeni biliklərlə zənginləşdirilməsi baxımımdan əhəmiyyətlidir. Bununla yanaşı, yeniyetmələrdə müəllim-şagird münasibətlərinin müəyyənləşdirilməsi və tədqiqi pedaqoji psixologiyada və seçmə fənlərin tədrisində yeni elmi istiqamətlərin yaranmasına imkan vermiş olur.

**Tədqiqatın praktik əhəmiyyəti** aşağıdakılardan ibarətdir:

- müəllim-şagird münasibətlərini düzgün, müasir dövrün tələblərinə uyğun qurulması üçün tədqiqatdan alınan nəticələrdən pedaqoji kollektivin idarə olunmasında, sinif kollektivinin təşkilində istifadə edilə bilər;
- tədqiqatın nəticələrindən pedaqoji kadrlar hazırlanan ali təhsil müəssisələrində, ixtisasartırma və ixtisasdəyişmə kurslarında istifadə oluna bilər;
- pedaqoji kollektivdə pozitiv psixoloji iqlim və şəraitin yaradılmasına tətbiq oluna bilər;
- tədqiqatın nəticələrindən məktəb psixoloqları, valideynlər, yeniyetmələrlə iş aparan hüquq-mühafizə orqanlarının işçiləri istifadə edə bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Tədqiqatın nəticələri Azərbaycan Respublikası Təhsil Problemləri İnstitunun psixologiya və yaş fiziologiyası şöbəsinin, AMİ-nin elmi-praktik konfranslarında, orta ümumtəhsil məktəblərinin praktik psixoloqları və müəllimlərinin iştirakı ilə keçirilən tədbirlərdə müzakirə olunmuş, tədqiqatın məzmunu, başlıca

müddəaları, nəticə və tövsiyələrinə dair bir neçə elmi məqalə dərc olunmuş məruzə tezisləri də öz əksini tapmış və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, iki fəsil,6 yarımfəsildən, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqatın aktuallığı əsaslandırılmış, onun obyekti, predmeti, məqsədi, elmi fərziyyəsi, məqsəd və elmi fərziyyəsindən doğan vəzifələri, metodoloji əsasları şərh olunmuş, eyni zamanda isdifadə olunmuş tədqiqatın əsas üsulları, elmi yenilikləri, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəaları və ümumi nəticələri barədə qısa məlumat verilmişdir.

Dissertasiyanın birinci fəsli **"Yeniyetməlik yaş dövrünün pedaqoji-psixoloji xüsusiyyətləri və onların müəllim-şagird münasibətlərinin normal inkişafina təsiri"** adlanan I fəsil üç yarımfəsli özündə birləşdirir. ***"Yeniyetməlik yaş dövründə şagirdlərin davranışında baş verən çətinliklərin tarixiliyinə dair"*** adlanan birinci yarımfəsildə yeniyeytməlik yaş dövrünün çətinlikləri, humanist prinsipə əməl olunmasının əhəmiyyəti, tarixin bütün mərhələlərində yeniyetmə şəxsiyyətinin formalaşmasına müəllim-şagird münasibətlərinə təsiri əks olunmuşdur. ***"Problemin pedaqoji-psixoloji ədəbiyyatda qoyuluşu"*** adlanan ikinci yarımfəsildə tədqiq etdiyimiz problemlə əlaqədar pedaqoji-psixoloji yönümlü əsərlər, proqram materialları, dərsliklər, dərs vəsaitləri, tədqiqatlar, monaqrafiyalar təhlil olunmuşdur.

Təhlil edilən ədəbiyyatlar yeniyetməlik yaş dövrünün çətinliklərinin neçə əsrlərdir ki, qlobal xarakter aldığı və bu problem müxtəlif aspektləri ilə məktəbşünasların, nəzəriyyəçi pedaqoq və psixoloqların, filosofların tarixən məşğul olduqlarını göstərir.

Mövcud tədqiqatlardan çıxarılan nəticə isə belədir: qərb dünyasının alimlərinin də, şərq dünyası alimlərinin də tövsiyələrindən faydalı olanları vahid məqsəd istiqamətində ümumiləşdirib pedaqoji anlayışlar şəklinə salmaqla bərabər, bu işdə milli pedaqogikamızın strategiyalarından xüsusilə bəhrələnməyə daha çox üstünlük verilməlidir.

Aparılan araşdırmalar göstərir ki, pedaqogika sahəsində "müəllim-şagird münasibətləri" haqqında ilk tədqiqat işi Ə.Sarıyev tərəfindən "Yuxarı sinif şagirdlərinin mənəvi tərbiysində müəllim-şagird münasibətlərinin rolu" mövzusunda yazılmış namizədlik dissertasiyası

aparıldığı üzə çıxarıldı. Professorlardan Ə.Əlizadə, A.Abbasov, S.Quliyev, A.Həsənov, Ə.Ağayev, Ə.Paşayev, F.Rüstəmov sözügedən problemə əsərlərində xüsusi yer ayırmışlar.

Tədqiq olunan problemə L.Qasımova və R.Mahmudovanın, R.Mustafayeva və S.Mustafayeva, Y.Talıbov, Ə.Ağayev, İ.İsayev və A.Eminovun, N.M.Kazımovun, M.İsmixanovun dərslik və dərs vəsaitlərində də rast gəlinir. Bir sıra pedaqoji ədəbiyyatda isə müəllim-şagird münasibətlərinə müxtəlif istiqamətlərdən toxunulmuşdur. L.Qasımova və R.Mahmudova, M.İlyasov, H.Ə.Əlizadə, R.Hüseynov, N.Cələbiyev, C.Quliyev və H.Cəfərovun tədris vəsaitləri bu qəbildəndir. Müəllim-şagird münaqişələrinin yaranmasının psixoloji yönümündən bəhs edən M.Həmzəyev, Ə.Bayramov, Ə.Əlizadə, E.Şəfiyeva, R.Əliyev, G.Əhmədov, Q.Əzimov, S.Əliyeva tədqiqatlarında bu məsələyə xüsusi yer ayırmışlar.

Azərbaycan Respublikasının Konstitusiyasında, Azərbaycanın Təhsil Qanununda "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" və digər sənədlərində göstərilir ki, təhsil sistemi inzibati amirlik sisteminə əsaslanan totalitarizmdən azad, açıq, demokratik və çoxsahəli formada qurulmalıdır. Bu cəhətdən müəllim-şagird, valideyn-müəllim münasibətləri, hər şeydən əvvəl, müəllimin pedaqoji ustalığından, onun həyat təcrübəsindən, valideynlərlə sistematik əlaqə saxlanmasından və bu sahədə onun səriştəliliyindən asılı olaraq müxtəlif funksiyaların yerinə yetirilməsində böyük əhəmiyyət kəsb edir.

***"Ailəxadili münasibətlərin düzgün həlli yeniyetmələrdə müəllim-şagird münasibətlərinin formalaşmasına təsir göstərən amillərdən biri kimi"*** adlanan üçüncü yarımfəsildə ailədaxili münasibətlərin müəllim-şagird münaqişələrinin yaranmasına təsirinin pedaqoji istiqamətləri təhlil olunmuşdur.

Dissertasiyanın ikinci fəsli **"Müəllim-yeniyetmələr arasında yaranan münaqişələrin səbəbləri, onların aradan qaldırılmasının imkan və yolları"** adlanır. İkinci fəslin "***Ünsiyyətin funksiyaları və reputasiyasının müəllim və şagird münaqişələrinin yaranmasına təsiri"*** adlanan I yarımfəslində müəllim-şagird münasibətlərinin şaxəli xarakterindən, bunun səbəbini müəllim və şagirdlərin bir-birinin məziyyətlərini, təfəkkürünü, çatışmazlıqlarını, zəif cəhətlərini axtarmasında görülməsindən bəhs olunur. Qeyd etmək lazımdır ki, çox zaman müəllim şagirdini öyrənməyə çalışmağa cəhd göstərənədək şagirdlər onları qabaqlaya bilirlər. Təbii ki, müəllimin xeyirxahlığı, humanistliyi, obyektivliyi şagirdin ona adekvat münasibəti ilə tamamlanır. Şagirdlər yaşa dolduqca bu

münasibətin əhatə dairəsi genişləndirilir. Eyni zamanda, şagirdlərin yaşları artdıqca müəllimin fikirləri də, düşüncələri də dəyişir, lakin onların bir-birinə qarşı münasibətlərində ilk düşüncələrlə son qavrama bərabər addımlayır. Bu prosesi müəllimin reputasiyası ilə bağlamaq olar. Müəllim-şagird reputasiyasını (fransızca reputation – fikirləşmək, düşünmək, hər hansı bir adamın məziyyətləri və ya çatışmazlıqları haqqında yaranan rəyə deyilir) bir-birindən fərqləndirirlər. Müəllimlərlə bağlı reputasiya özünü: məktəb rəhbərləri, müəllimlər və valideyinlərlə qarşılıqlı münasibətdə; şagirdlərlə əlaqədə, müəllim ilə münasibətdə və sinif rəhbərləri ilə, valideyinlərlə, yoldaşları ilə qarşılıqlı münasibətdə təzahür etdirir. Bu reputasiya şagirdləri təhsil aldığı müddətdə "izləyir", yaxşı halda-onun fəaliyyətinin genişlənməsinə, pis halda - müəllim-şagird münasibətlərində münasiqişələrin yaranmasına gətirib çıxarır. Çox halda bu və ya digər şagird haqqında fikirlərini bölüşdürən müəllimlər bir-birlərini müdafiə etməkdən də yan ötmürlər. Demək, bir müəllimin şagird haqqında gəldiyi fikirlə bütün müəllimlər arasında ümumi rəy yaranmış olur. Bu reputasiya müəllim-şagird münaqişəsinin daha da dərinləşməsinə gətirib çıxara bilir. Tədqiqatda bu problemin müəllim-şagird münaqişəsinin yaranmasına təsiri də ümumiləşdirilmişdir. Görkəmli psixoloqlardan K.Blaqa və M.Şebekin qeyd edirdilər ki, şagird barəsində pedaqoji kollektivdə müəyyən bir rəyin yaranmasında "müəllimlər otağındakı söhbətlər", "sinif rəhbərinin fikirləri" mühüm rol oynayır və uzun müddət əsas informasiya kimi müəllimlərin, sinif rəhbərlərinin onlara münasibətində özünü göstərir. Müəllimlər tərəfindən tez-tez eşidilən "çətin uşaqdır", "oxumaq istəməyən şagirddir", "çox savadsızdır", "intizamsızdır" ifadələri şagirdlərin onlara mənfi münasibətini şərtləndirən amillərdəndir. Tədqiqatda reputasiya baxımından yaranan münaqişələri yaradan bu kimi səbəblər ümumiləşdirilmişdir:

1. Şagirddə mövcud olan çatışmazlıqların tez-tez onun üzünə vurulması.
2. Müəllimin şagirdin xarakter xüsusiyyətini nəzərə ala bilməməsi.
3. Kollektiv qarşısında şagirdi nüfuzdan salması.
4. Müəllimin kollektivdə şagird haqqında xoşagəlməyən fikir formalaşdırması.
5. Şagirdə müraciətinin səmimi olmaması.
6. Kobud ifadələrə yol verməsi.
7. Valideynlərə hörmətlə yanaşmaması.

II fəslin ikinci yarımfəsli "Pedaqoji ünsiyyət zamanı yeniyetmələrlə yaranan münaqişələr və onların səbəbləri" adlanır. Yarımfəsildə ünsiyyət

zamanı yeniyetmələrlə yaranan münaqişələrin səbəbləri şərh edilmişdir.

Burada müəllimlərin şagirdlərlə ünsiyyətini çətinləşdirən və münaqişəyə səbəb olan cəhətlər göstərilməklə yanaşı, onların təhlili də verilmişdir. Bu sıraya daxil edilmişdir:

1. Müəllimin ədalətsizliyi.
2. Şagirdlər arasında fərqlər yaratması.
3. Şagirdlərinə qarşı laqeyd münasibəti.
4. Özünüsevməsi.
5. Şagirdlərin istəklərinə məhəl qoymaması.
6. Şagirdi dinləmək istəməməsi.
7. Maraqlarını nəzərə almaması.
8. Şagirdlərini sevə bilməməsi və s.

Tədqiqat göstərmişdir ki, məktəbin idarə olunmasında ən mühüm məsələlərdən biri kimi müəllim-şagird münasibətlərinin düzgün qurulması və münaqişələrin yaranmasına imkan verməyən sosial-əxlaqi, sağlam mühitin yaradılması metodikasının düzgün müəyyənləşdirilməsidir.

Araşdırmalar göstərir ki, pedaqoji prosesin düzgün təşkil edilməsi məktəbdə münaqişələrin yaranmasına imkan verəcək mühiti kölgəyə alır. Bu da məktəbdə normal iş rejiminin olmasını şərtləndirir. Ünsiyyətin növlərindən hesab olunan münaqişələr ziddiyyətlərə və kəskin, emosional şəraitdə bu ziddiyyətlərin aradan qaldırılmasına əsaslanır. Əsərdə məntiqi əsaslara söykənən ziddiyyətlərin məzmunu və xüsusiyyəti nəzərə alınmaqla onların növləri müəyyənləşdirilmişdir.

Tədqiqatımızda tarixi mənbələrə əsaslanaraq münaqişələrin aradan qaldırılması yolları da ümumiləşdirilmişdir:

- sağlam rəqabət yolu;
- uzaqlaşma yolu;
- qarşılıqlı güzəşt yolu;
- inandırma yolu.

Müəllimlərlə şagirdlər arasında münaqişələrin aradan qaldırılmasının optimal şərtləri bunlardır:

- müəllim uşaqların daxili aləmini görə bilsin;
- uşaqlara sevgi və məhəbbətlə yanaşsın;
- şagirdlərin maraqlarını nəzərə alsın;
- sözü ilə işi arasında vəhdət olsun;
- ədalətli və obyektiv hərəkət etsin;
- yüksək əxlaqi keyfiyyətlərə malik olsun;
- şagirdlərlə valideyn və övlad münasibətini yarada bilsin və s.

Tədqiqatımıza əsaslanıb belə qənaətə gələ bildik ki, bütün bu qeyd olunanlar nəinki müəllim-şagird münaqişələrinin yaranmasının qarşısını aldığı kimi, eyni zamanda təlim-tərbiyənin səmərəliliyinə əsaslı təsir göstərmiş olur.

Müəllim-şagird ünsiyyəti mürəkkəb və çətin məsələlərdən olduğundan müəllimin rəhbərlik mövqeyinin sözügedən problemin yaranmasına təsirini də tədqiq etməyə çalışdıq.

Araşdırmalar göstərdi ki, məktəblərimizdə fəaliyyət göstərən müəllimlərimiz müxtəlif mövqelərə malik olduqlarından onların iş üslubları da rəngarəngdir. Bu sıradan olan gənc müəllimlər şagirdlərlə dostluq mövqeyinə üstünlük verirlər.

Onlar belə qənaətə gəlirlər ki, müəllimin rəhbərlik üslubu təlim-tərbiyə prosesində əsas şərtdir. Düzgün rəhbərlik münaqişədən uzaqdır.

Yarımfəsildə deyilənləri ümumiləşdirərək belə nəticə çıxarılır ki, müəllim-şagird münasibətinin yaranmasına səbəb olan amilləri şərti olaraq iki qrupa bölmək olar: 1) müəllimin pedaqoji ustalığının aşağı olması; və 2) şagirdin stimullaşdırıcı amillərdən uzaq olması. İkinci fəslin üçüncu yarımfəsli ***"Müəllim-şagird münaqişələrin aradan qaldırılmasının imkan və yolları"*** adlanır. Bu fəsildə müəllim və şagirdlər arasında yaranan münaqişənin aradan qaldırılmasının optimal yolları verilmişdi. Bu sıraya 1) münaqişə yaratmağa cəhd edən şagirdi tərbiyəedici situasiyaya salmaq, 2) valideynlərlə ünsiyyət yaratmaq; 3) şagirdlərə qarşı diqqət və qayğılı olmaq və s. daxil edilmişdir.

Tərbiyəedici situasiyanı yaradan müəllimdir. Onun humanist davranışı şagirdlərə hər cəhətdən nümunəyə çevrilmək qabiliyətidir.

Müəllim psixoeqoizmi şagird psixikasına güclü təsir göstərir. Odur ki, müəllimin sadəliyi, təvazökarlığı, xeyirxahlığı etalona çevrilməlidir. Özünü hamıdan bilikli göstərən, tərifləyən, üstün tutan müəllim münaqişə çələyidir. Həmin çələk konfiliktoloji situasiyalar üçün detanator sayılır.

Yeniyetmə belə müəllimlərə etiraz edir, onun öz üstünlüklərini idealizə etməsini, özünəvurğunluğunu bəyənmir və bunları onun üzünə də vurur.

Fəsildə aparılan eksperimentin nəticələrini və təlimatları yoxlamaq üçün şagirdlərə tapşırıqlar verilmiş və cavablar ümumiləşdirilmişdir. Onlar aşağıdakı şəkildə ifadə olunmuşdur:

Təlimat 1: Şagirdlərlə birlikdə müəllimlərin münaqişəyə yol açmayan xarakter xüsusiyyətlərini müvafiq həndəsi işarələr və rənglərlə ifadə edin.




**Şəkil 1. Rənglərin ifadə forması**




**Şəkil 2. Alınan cavabların faizlə ifadəsi**

Şagirdlər rənglər əsasında müəllim haqqında fikirlərini ifadə etdikdən sonra onların suallarla bağlı fikirlər öyrənildi. Cavablar cədvəllərdə ümumiləşdirilmişdir:

**Cavabların ifadə forması**

**Cədvəl 1**

| | Cavablar, şagirdlərin istədikləri | Faizlə ifadə | Cavablar istənilməyənlər | Faizlə ifadə |
|---|---|---|---|---|
| 1. | Münaqişə istəmirik | 30% | Kobudluq | 45% |
| 2. | Mehribanlıq | 18% | Uşaqları sevə bilməmək | 10% |
| 3. | Qayğıkeşlik | 20% | Laqeyidlik | 10% |
| 4. | Diqqətlilik | 20% | Özündən razı olmaq | 15% |
| 5. | Bizi sevən | 12% | Hirsli olmaq | 20% |

Eksperiment zamanı məlum olmuşdur ki, bəzi siniflərdə riskli şagirdlər çoxdur. Onlar sanki münaqişə ocaqlarıdır. Müəllimlərlə aparılan söhbət əsnasında sözügedən uşaqlarla münaqişənin aradan qaldırılması

imkanları müəyyənləşdirildi. Onlara verilən plan əsasında yoxlama aparılmasını məsləhət bildik.

**Müəllim-şagird münaqişəsinin nəticələrinə aid**

**Cədvəl 2**

| Məktəb | Şagirdlərin sayı | Suallar | Riskli şagirdlərin cavabı | Digər şagirdlərin cavabı |
|---|---|---|---|---|
| 43 saylı | Eks. 26 | 1.Dərs xoşunuza gəldimi?<br>2. Münaqişəni yaradan kimdir?<br>3. Dərs sizi qane elədimi?<br>4. Belə halda münaqişə mümkündürmü?<br>5. Dərsə necə dəyər verirsiniz? | 1. Bəli<br>2. Müəllim<br>3. Çox xoşumuza gəldi<br>4. Heç zaman<br>5. Çox yaxşı | 1. Bəli<br>2. Müəllim də, biz də<br>3. Yaxşı dərs idi<br>4. Təbii ki, yox<br>5. Əla |
| | Kon. 25 | 1.Dərs xoşunuza gəldimi?<br>2. Münaqişəni yaradan kimdir?<br>3. Dərs sizi qane elədimi?<br>4. Belə halda münaqişə mümkündürmü?<br>5. Dərsə necə dəyər verirsiniz? | 1. Yox<br>2. Müəllim<br>3. Xeyr<br>4. Bəli<br>5. Pis | 1. Yox<br>2. Müəllim<br>3. Əlbəttə<br>4. Bəli<br>5.Orta səviyyəli |

### Şagirdlərin eksperimentdən əvvəl və sonra yaranan münaqişələrinin balla ifadəsi

**Cədvəl 3.**

| Vaxt | Sinif | Şagirdlərin sayı | Münaqişə yaradan şagirdlərin sayı | Münaqişənin təlimə təsiri, oxumayan şagirdlərin sayı |
|---|---|---|---|---|
| Eksperimentdən əvvəl | VIII[a] | 24 | 13 | 11 |
| | VIII[b] | 26 | 16 | 10 |
| Eksperimentdən sonra | VIII[a] | 24 | - | 3 |
| | VIII[b] | 26 | 1 | - |

### Münaqişənin aradan qaldırılması vəziyyəti

**Cədvəl 4**

| Məktəb | Şag. sayı | Riskli uşaqların sayı | Digər uşaqların | Suallara verilən cavablar | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | Riskli uşaqların fikirləri | | Digər uşaqların fikirləri | |
| | | | | Suallar | Cavablar | Suallar | Cavablar |
| 43 saylı | Eksp. 26 | 11 | 1 5 | Dərs xoşunuza gəldimi? | Bəli | Dərs xoşunuza gəldimi? | Bəli |
| | | | | Münaqişəni yaradan kimdir? | Müəllim | Münaqişəni yaradan kimdir? | Müəllim |
| | | | | Dərs sizi qane elədimi? | Çox da yox | Dərs sizi qane elədimi? | Çox da yox |
| | | | | Belə halda münaqişə mümkündür mü? | Yox | Belə halda münaqişə mümkündür mü? | Yox |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | Dərsə necə dəyər verirsiniz? | Bəli | Dərsə necə dəyər verirsiniz? | Əla |
| | Kont. 25 | 7 | 18 | Dərs xoşunuza gəldimi? | Çox da yox | Dərs xoşunuza gəldimi? | Bəli |
| | | | | Münaqişəni yaradan kimdir? | Müəllim | Münaqişəni yaradan kimdir? | Müəllim |
| | | | | Dərs sizi qane elədimi? | Yox | Dərs sizi qane elədimi? | Yox |
| | | | | Belə halda münaqişə mümkündür mü? | Bəli | Belə halda münaqişə mümkündür mü? | Bəli |
| | | | | Dərsə necə dəyər verirsiniz? | Çox pis | Dərsə necə dəyər verirsiniz? | Orta |

| Məktəb və siniflər | Şagirdlərin sayı | Daim münaqişə yaradanların sayı | Eksperimentdən əvvəl münaqişənin yaradılması | Eksperimentdən sonra münaqişənin yaradılması | Dərsdən razı qalan şagirdlər |
|---|---|---|---|---|---|
| Sumqayıt | Eks. 25 | 5 | 5 | - | 25 |
| | Kont.26 | 3 | 3 | 2 | 8 |

Cədvəldən aydın etmək olur ki, eksperimentə cəlb edilmiş siniflərdə müəllim-şagird münaqişəsinin aradan qaldırılması mümkündür və ya onun yaranmaması üçün müvafiq şəraitin təşkili mühüm əhəmiyyət kəsb edir.

Keçirdiyimiz öyrədici və yoxlayıcı eksperimentə qoyulan fərziyyələrimizdə yaranmış münaqişələrin başvermə səbəbləri bu ixtilaf və ya inciklikIərdə, narazılıqlarda müəllimlərin və ya yeniyetmələrin daha çox məsuliyyətsiz faktlara yol verməsi nəzərə alınmış, problemin həlli yollarında güzəşt amilinə üstünlük verilmişdir. Öyrədici eksperimentimiz

münaqişəsiz həyat, əməkdaşlıq, saf, səmimi rəğbət pedaqogikasının təsirediciliyi yolları və momentləri izlənmiş, müvafiq pedaqoji anlayışlara çevrilmişdir. Bunlar da aşağıdakılardır:

1. Məktəbdə işgüzar mühiti müəllimlər yaradır, yeniyetmələrə təlqin etdirir, çünki pedaqoji prosesin yeganə səlahiyyət sahibi müəllimdir.

2. Konfiliktologiya öyrənilməlidir, lakin nikbinlik pedaqogikası məktəbdə sağlam mühit olmalıdır.

3. Müəllim məktəbdə özünü müəllim, valideyn, tərbiyəçi qismində görməlidir. Çünki “dünyada ondan yüksək və şərəfli bir ad yoxdur” (H.Əliyev).

Aparılan tədqiqat aşağıdakı **nəticələrdə** ümumiləşdirilmişdir:

1. Pedaqoji prosesdə müəllimin əsas sima olması – şagirdlərlə düzgün ünsiyyət qurması ilə də şərtlənir. Müəllim-şagird ünsiyyətinin düzgün qurulması təlim prosesində əsalı şəkildə təsir edir. Tərbiyə işinin pedaqoji taktlarla düzgün tənzimlənməsi şagirdlərin humanist qayələr əsasında formalaşması ilə nəticələnir.

2. Müəllimlərlə şagirdlər arasında yaranan münaqişənin səbəbləri çox olsa da ən əsası birinci tərəfin öz tərəf müqabili ilə dil tapa bilməməsi sayılır. Müəllimin şagirdlərin daxili aləminə nüfuz edə bilmədikvə bu o onların arasında pozitiv münasibətlərin yaşamasına əsaslı təsir göstərəcəkdir.

3. Şagirdlərə özlərinin münasibətini aydınlaşdırmaq qabiliyyətini formalaşdırmaqla, onlarda müəllimi duyub-qavramaq imkanları artmış olur. Bu da şagirdlərin müəllimə qarşı səmimi münasibətinə əsas verir.

4. Şagirdlərlə - müəllimlər arasında münaqişənin yarana bilməməsi üçün ünsiyyətin düzgün təşkili mühüm şərtlərdəndir. Biz hesab edirik ki, münaqişənin olmaması məktəbdə ünsiyyət mühitinin pedaqoji əməkdaşlıq mühitinin yaradılmasından asılıdır.

5. Müəllim-şagird münaqişələrinin yaranmaması üçün hər iki tərəfin bir-birinə güzəştə getməyi bacarmaq ruhunda özlərini tərbiyə etmək qabiliyyətinə yiyələnmələridir.

6. Müəllimin “Çin səddi” mövqeyi onu şagirdlərdən uzaq salır, uşaqlar arasında ona rəğbət hissi formalaşdırır. Müəllimin “Kommunikativ hafizəsi” bu maneənin aradan qaldırılmasına imkan verir. Müəllim-şagird qarşılıqlı münasibətlərinə rəvac verən mühribanlıq, doğmalıq olmalıdır.

7. Hər bir sinifdə və ya məktəbdə deviant davranışa malik, o cümlədən riskli uşaqların mövcud ola biləcəyini müəllim daim diqqətdə saxlamalı, belə uşaqların psixologiyasını yaxşı bilməlidir. Bu qəbildən olan şagirdlər sanki münaqişə yaratmaq üçün mövcuddurlar. Onların

xüsusiyyətlərinin nəzərə alınmaması, qayğı göstərilməməsi müəllimin perseptiv qabiliyyət nümayiş etdirə bilməməsi hər iki tərəfdə sərt münasibətin daim hökm sürməsinə kömək etmiş olur.

8. Müəllim heç də həmişə qarşıya pedaqoji məqsəd qoyub ona əməl etmir, daha doğrusu şagirdlərlə necə, hansı formada ünsiyyət quracağını düşünmür. Şagirdləri ələ almaq yollarını bilmir, belə hallarda müəllimlər daim münaqişələrlə rastlaşır. Şagirdin psixi vəziyyətini və şəxsiyyətin diaqnostikasını müəyyənləşdirməkdə çətinliklər çəkir.

9. Müəllimlərlə şagirdlər arasında hörmət prinsipi hökm sürməlidir. Şagirdə hörmət etməyi bacaran müəllim bunun qarşılığını şagirddən ala bilir. Şagirdə şəxsiyyət kimi yanaşan müəllim onlarda fərəh hissi formalaşdırır, özlərinə inam yaradır. Belə mövqe heç bir zaman onlar arasında münaqişə yaranmasına yol aça bilməz. Bu da pedaqoji prosesin səmərəliliyinin şərtlənməsinə də əsas verir.

10. Müəllimlərin şagirdlərlə yaratdığı münaqişələr, onların pedaqoji biliyinin azlığından, şagirdlərin yaratdığı münaqişələr pedaqoji prosesin düzgün təşkil olunmasından və şagirdlərin tərbiyəlilik səviyyəsinin aşağı olmasından soraq verir. Bu çətin və neqativ halların yaranmaması üçün səriştəli müəllimlərin iş təcrübəsini izləməli, öyrənilməli və nümunə göstərilməli və tətbiq olunmalıdır.

11. Müəllim şagirdi bütövlükdə öz inkişaf perspektivində, qabillik səviyyəsində olduğunu qavraya bilmir, öz əməyini, zəhmətini pedaqoji fəaliyyət, pedaqoji ünsiyyət və şəxsiyyətlə vəhdətdə olan tam kimi görə bilmir, onları müəllim-şagird sistemi çərçivəsinə keçirə bilmir, dəyər verməyi bacarmır. Bu çətinliklərin aradan qaldırılmasında ən ümdə iş pedaqoji səriştəliliyə yiyələnə bilməkdir.

12. Müəllim şagirdlərlə daim münasibətdə olur. Bu münasibətlər onun pedaqoji proses və təşkilati işlərindəki praktik fəaliyyətində inkişaf edir. Prosesi düzgün təşkil etmək üçün müəllimin pedaqoji fəaliyyət zamanı baş verən çətinliklərin qarşısını almağa kömək edən münasibətlər yaratmağa hazır olması zəruridir. Müəllimdə isə pedaqoji qabiliyyətlərin, bacarıq və vərdişlərin olmaması səbəbindən münaqişələr özünü hər zaman təzahür etdirə bilir. Müəllim-şagird münaqişəsinin yaranmaması üçün müəllim şagirdlərin davranışını təhlil etməyi bacarmalıdır. Bu cür bacarıq müəllimə şagirdlərlə düzgün ünsiyyət qurmağa kömək edir, belə halda pozitiv ünsiyyət qarşılıqlı xarakter daşıyır.

Tədqiqatın məzmunu çap olunmuş aşağıdakı elmi **əsərlərdə** öz əksini tapmışdır:

1. Çağdaş pedaqoji elmin görkəmli nümayəndələri / Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial mədəni inkişaf mövzusunda konfrans, 2012, s. 306-308

2. Müəllim-şagird münasibətlərini çətinləşdirən səbəblər / Təhsil və cəmiyyət mövzusunda V Respublika elmi –praktik konfransın materialları. Bakı, 7 may 2013, s. 259-260

3. Azərbaycan müstəqilliyinin ilk dövrlərində təhsilin inkişafında H.Əliyevin xidmətləri / Gənc tədqiqatçıların I beynəlxalq elmi konfransın materialları. Bakı, 26-27 aprel 2013, s.630

4. Xüsusi qayğıya eytiyacı olan uşaqların valideynləri ilə işin təşkilində müəllimlərin rolu / "Azərbaycan inkluziv təhsilin tərtibi problemləri və onların aradan qaldırılması yolları" mövzusunda elmi-praktik konfrans, Bakı, 2014, s.92

5. Müəllim-şagird münasibətinin yaranmasında reputasiyanın rolu // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2014, cild 10, №4, s.42-46

7. Müstəqillik illərində dərslik probleminin qoyuluşu / "Müəllim hazrılanmasının müasir problemləri texnologiya təhsil və inkişaf" mövzusunda Beynəlxalq Elm konfrans, Bakı, Qafqaz Universiteti, 22 -24 may 2014, s. 48-49

8. Müstəqillik illərində dərslik probleminin qoyuluşu və həlli / "Müəllim hazırlığının müasir problemləri: texnalogiya, təhsil və inkişaf" mövzusunda III Beynəlxalq Elmi konfransının materialları. Bakı, 22-24 may 2014, s.48

9. Müasir məktəbdə müəllim-şagird ünsiyyətində münaqişənin yaradılması problemi / Doktorant və gənc tədqiqatçıların XIX Respublika elmi konfransının materialları. Bakı, 2015, cild II, s.251-252

10. Pedaqoji münaqişələr və onların aradan qaldırılması yolları / "Təhsilin inkişafı Strategiyası və onun reallaşdıırlması" mövzusunda VII Respublika elmi-praktik konfrans. Bakı, BDU, 7 may 2015, s.482-483

11. Pedaqoji ünsiyyət zamanı yaranan maneələr və onların səbəbləri // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2015, cild II, №4, s. 49-54

12. Çətin tərbiyə olunan uşaqlarla münaqişənin səbəbləri / "Təhsildə pedaqoji yanaşmalar: keçmişin təcrübəsi və gələcəyə baxış" mövzusunda ümumrespublika elmi praktik konfrans. Bakı, BDU, 4-5 may 2016, s.235-236

13. Müəllim-şagird ünsiyyəti və münqaişələr // Bakı Qızlar Universiteti, 2016, №1, s.82 -87

14. Məktəb və müəllim şagird ünsiyyəti / Gənc tədqiqatçıların IV

Beynəlxalq elmi konfransı. Bakı, QafqazUniversiteti, 29-30 aprel 2016, s.1429-1430

15. «Pedaqogika» ( Bakalavr və magistr təhsili alan tələbələr üçün Pedaqogikadan praktik dərs vəsaiti. Dərs vəsaiti. Bakı, 2014, s.3-154 (Z.Kərimova. G.V.Sultanova. G.T.Eminova)

16. Tələbə şəxsiyyətinin formalaşdırılmasınada müəllimin peşəkar inkişafı / "Müəllim–tələbə münasibətləri: Pedaqoji və psixoloji aspektlər" mövzusunda Respublika elmi konfransın materialları. Sumqayıt, 27-28 oktyabr 2016, s. 257-258 (T.Tağıyeva)

17. Pedaqoji prosesdə müəllim-tələbə ünsiyyəti / "Müəllim-tələbə münasibətləri. Pedaqoji və psixoloji aspektlər" mövzusunda Respublika elmi konfransı, Sumqayıt, 27-28 oktyabr 2016, s.66

18. Ünsiyyət mədəniyyəti və müəllim-şagird münaqişəsinə onun təsiri / Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfransının materialları. Bakı, 24-25 may 2016, s.298-300

19. Влияние вунутрисемейных отношенный на формирование взаимоотношеный подростков с учительями // Министерство освити и науки Украины Херсонький Державный Университет. Педагогични Науки, 2016, Том 1, с.19-123

20. Müasir dövrün təhsil problemləri (ali təhsilin bakalavriyat pilləsi üçün). Proqram. Bakı, 2016, s. 21-29

21. Təlim nəticələrinin qiymətləndirilməsinin forma və vasitələri (ali təhsilin bakalavriyat pilləsi üçün). Proqram. Bakı, 2016, s.30-45

22. Müasir pedaqoji texnalogiyalar və innovasiyalar (ali təhsilin bakalavriyat pilləsi üçün). Proqram. Bakı, 2016, s.147-159

23. Müasir təlim prosesində sinfin səmərəli idarəedilməsinin əsasları / Ali məktəb müəllimlərinin I Respublika formunun materialları, Bakı, 2017, s. 46-48

24. Müəllim-şagird münaqişələrinin nəzəri məsələləri / IX Ümum-respublika elmi -praktik konfransı, Bakı, BDU, 4 may 2017, s.266-267

25. Об историчности процесса становления и эволюции личности подростка // ГАОУ ВО ЛО «ЛГУ им.А.С.Пушкина». 2017, с. 250-254

25. Pedaqoji münaqişələrin yaranması // Azərbaycan Respublikası Təhsil İnstitutu, Elmi əsərlər, №2, 2018, s.9-12

26. Münaqişələrin yaranmasına müəllim və şagirdlərin qarşılıqlı münasibətlərinin təsiri // Bakı Qızlar Universiteti, Elmi əsərlər, 2018, №1, s.248-254

**Еминова Гюльшен**

## Педагогические конфликты между учителями и подростками и пути их устранения

Диссертация состоит из введения, двух глав, заключения и списка использованной литературы.

Во введении обосновываются актуальность темы, объект, предмет, цель и задачи, методологические основы, методы, научная новизна, теоретическое и практическое значение исследования и отражены основные положения, выдвигаемые на защиту.

I глава, которая называется «Педагог-психологические особенности подросткового периода и их влияние на нормальное развитие отношений учитель-ученик», состоит из трех подглав. Здесь отражаются трудности подросткового периода, значение исполнения гуманистических принципов, формирование подростковой личности во всех периодах истории, отношения учитель-ученик. Анализируются педагого-психологически ориентированные произведения, программные материалы, учебники, учебные пособия, исследования, монографии, связанные с исследуемой проблемой. Факторы, которые становятся причиной появления отношений учитель-ученик, условно делятся на две группы: 1) низкий уровень педагогического мастерства учителя; 2) отдаленность ученика от стимулирующих факторов.

Вторая глава диссертации называется «Причины конфликтов между учителем-подростком, пути и возможности их устранения». В этой главе говорится о многогранном характере отношений учитель-ученик, о том, что причина этого видятся в поиске учителями и учениками достоинств, мышления, недостатков, слабых сторон друг друга, о методе учителя познавания своего ученика в целом и т.д. Указываются оптимальные пути устранения появившихся конфликтов между учителем и учеником. Сюда включаются 1) включение ученика, который пытается создать конфликт, в воспитывающую ситуацию; 2) создать общение с родителями; 3) быть внимательным и заботливым к ученикам и т.д.

В главе, для проверки результатов проведенного эксперимента и инструкций, ученикам даются задания и ответы обобщаются.

В заключении обобщаются выводы и основные проблемы исследования.

**Eminova Gulshen**

## Pedagogical conflicts between teachers and adolescents and ways to eliminate them

The thesis consists of an introduction, two chapters, a conclusion and a list of used literature.

In the introduction the relevance of the topic, the object, the subject, the purpose and the objectives, the methodological basis, the methods, the scientific novelty, the theoretical and practical significance of the study are substantiated and the main provisions put forward for defense are reflected.

The first chapter, entitled "The Teacher-Psychological Features of the Adolescent Period and Their Influence on the Normal Development of the Teacher-Student Relationship," consists of three sub-chapters. This reflects the difficulties of the adolescent period, the importance of the implementation of humanistic principles, the formation of a teenage personality in all periods of history, the teacher-student relationship. Teacher-psychologically oriented works, program materials, textbooks, teaching aids, studies, monographs related to the problem under investigation are analyzed. Factors that cause the emergence of teacher-student relations are conditionally divided into two groups: 1) the teacher's pedagogical skills are low; 2) remoteness of the student from stimulating factors.

The second chapter of the thesis is called "Causes of conflicts between a teenager teacher, ways and possibilities of their elimination". This chapter talks about the multifaceted nature of the teacher-student relationship, that the reason for this is seen in the search for merit, thinking, weaknesses, weaknesses of each other in teachers and students, about the method of the teacher of knowing his pupil as a whole, etc. The optimal ways of eliminating the conflicts that arise between the teacher and the student are indicated. This includes 1) the inclusion of a student who is trying to create a conflict in a parenting situation; 2) create communication with parents; 3) be attentive and caring towards students, etc.

In the chapter, to check the results of the experiment and instructions, students are given tasks and answers summarized.

In conclusion the results and the main problems of the study are discussed.

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ

***На правах рукописи***

**ГЮЛЬШЕН ТАХИР гызы ЕМИНОВА**

# ПЕДАГОГИЧЕСКИЕ КОНФЛИКТЫ МЕЖДУ УЧИТЕЛЯМИ И ПОДРОСТКАМИ И ПУТИ ИХ УСТРАНЕНИЯ

**5804.01 – общая педагогика, история педагогики и образования**

## АВТОРЕhФЕРАТ

**диссертации на соискание учёной степени доктора философии по педагогике**

**Баку – 2018**